DÖVLƏT
İMTAHAN
MƏRKƏZİ

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT İMTAHAN MƏRKƏZİ

## İMTAHAN İŞTİRAKÇISI ÜÇÜN

# YADDAŞ KİTABÇASI

(Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul imtahanlarına dair)

Aşağıdakıları imtahana gətirmək qadağandır:











İmtahan binasına giriş zamanı üzərində mobil telefon və digər rabitə vasitələri, konspekt və başqa yardımçı vasitələr aşkar olunan namizədlər barədə akt tərtib olunur, bu vasitələr və onların imtahan sənədləri götürülür və onlar imtahan binasına buraxılmırlar.

2022

**Hörmətli iştirakçı!**

Mövcud məlumatlara əsasən COVID-19 insanlar arasında birbaşa hava-damcı yolu ilə və ya dolayı yolla kontaminasiya olunmuş səthlərə təmasdan sonra əllərlə ağız boşluğuna, gözlərə, buruna və s. toxunduqda ötürülür.

**Bu virusa yoluxmamaq üçün aşağıdakılara əməl etməyiniz vacibdir:**



Əllərinizi sabunlu su ilə yuyun və ya dezinfeksiyaedici məhluldan istifadə edin



Üz maskası taxın



Əllərinizlə göz, burun və ağzınıza toxunmayın



Əl ilə görüşməyin



Sosial məsafə (2 metr) saxlayın



Öskürəndə və asqıranda ağzınızı kağız salfet və ya dirsəyinizin iç tərəfi ilə örtün



Əllərinizlə səthlərə təmas etməyin, qapı dəstəklərinə və tutacaqlara toxunmayın




COVID-19-a spesifik olan əlamət(lər) (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) olduğu halda evdən çıxmayın və tibbi xidmətin göstərilməsi üçün 103 TTTY müraciət edin

**İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:**

1. İmtahan günü imtahana buraxılış vərəqəsində göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin.
2. Özünüzlə HB sərtliyində sadə karandaş, qələmyonan və pozan götürün.
3. Tünd qara rəngdə yazan diyircəkli qələm imtahan zamanı DİM tərəfindən təmin olunur.
4. İmtahana gələrkən aşağıdakı sənədləri gətirməyi unutmayın:
    - **şəxsiyyət vəsiqəsi,**
    - **imtahana buraxılış vərəqəsi,**
    - **sağlamlıq haqqında bəyannamə** (buraxılış vərəqəsi ilə birlikdə çap edirsiniz, imzalayırsınız və imtahan zalına daxil olduqda nəzarətçiyə təhvil verirsiniz).
5. **Aşağıdakı hallarda iştirakçı imtahana buraxılmır:**
    - tələb olunan sənədlərdən hər hansı biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
    - saxta sənəd təqdim etdikdə;
    - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqədən az vaxt qalmış gəldikdə;
    - tibbi maskadan istifadə etmədikdə;

- bədən hərarəti $37^0$ və $37^0$-dən çox olduqda;
- dezinfeksiyaedici məhluldan istifadədən imtina etdikdə;
- imtahana içkili vəziyyətdə gəldikdə;
- imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.

6. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılışa məsul şəxsə təqdim edin. O, icazə verdikdən sonra buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşları tərəfindən yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.

## İŞTİRAKÇININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR

1. İmtahan zalında imtahana buraxılış vərəqənizdə göstərilmiş sizə məxsus sıra və yerdə oturun. İzahat işi aparıldıqda iştirakçının imtahanda davranış qaydalarını diqqətlə dinləyin. Aydın olmadıqda sonda nəzarətçiyə müraciət edin.
2. İzahat işi qurtardıqdan sonra sizə cavab kartı paylanır. Cavab kartını tünd qara rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələmlə və ya sadə karandaşla doldurun. Cavab kartındakı məlumatlar optik oxuyucu qurğu vasitəsilə oxunduğundan dairələri tam qaralayın. Cavab kartını əzmək, ləkələmək, zədələmək və cırmaq olmaz.

   **DİQQƏT! Korlanmış cavab kartı dəyişdirilmir.**

   Cavab kartının 1-ci bəndində iş nömrəniz, soyadınız, adınız və atanızın adı göstərilmişdir. Həmin məlumatların imtahana buraxılış vərəqənizdə göstərilən məlumatlarla eyni olduğunu yoxlayın. Uyğunsuzluq aşkar etdikdə mütləq nəzarətçiyə müraciət edib məsələyə aydınlıq gətirin. Bu bənddə qaydalara zidd hərəkətə yol verməyəcəyiniz barədə Bəyannamə ilə tanış olun və ona riayət edəcəyinizi öz imzanızla təsdiq edin. Cavab kartının 2-ci bəndində iş nömrənizin hər bir rəqəmini ardıcıl olaraq damalara yazıb hər bir damanın altındakı sütunda müvafiq rəqəmi tapıb onun yerləşdiyi dairəni qaralamalısınız. Diqqətli olun, hər sütunda yalnız bir dairə qaralanmalıdır.
3. Cavab kartını doldurduqdan sonra sizə sual kitabçaları paylanır. Sual kitabçasının üzərində sizin iş nömrəniz, soyadınız, adınız, ata adınız, zalınızın kodu, sıra və yeriniz çap edilmişdir. Bu zaman diqqətli olun. Sizə təqdim olunan sual kitabçasının üzərindəki soyad, ad və ata adı sizə məxsus deyilsə, dərhal nəzarətçiyə müraciət edin. Belə ki, imtahan nəticələriniz qiymətləndirilərkən cavablarınız üzərində sizin soyadınız, adınız və ata adınız çap edilmiş və cavab kartınızda göstərilmiş varianta uyğun sual kitabçasının doğru cavabları ilə müqayisə ediləcəkdir. Sual kitabçasının sizə düzgün təqdim olunduğuna əmin olduqdan sonra üzərindəki bəyannaməni soyad, ad və ata adınızı yazaraq imzanızla təsdiq edin.
4. **İmtahan 2 hissədən ibarətdir:** test tapşırıqlarının cavablandırılması və esse tapşırığının yerinə yetirilməsi. **Test tapşırıqlarının cavablandırılmasına 2 saat 30 dəqiqə** vaxt ayrılır. Cavabların cavab kartında qeyd olunması (uyğun dairələrin qaralanması) üçün sərf olunan vaxt da imtahan müddətinə daxildir. Hesablamaları və qeydləri aparmaq üçün sual kitabçasında boş yerlər nəzərdə tutulmuşdur. Ona görə əlavə kağızdan istifadə olunmasına icazə verilmir.

   Test tapşırıqlarının cavablandırılmasına ayrılan vaxt qurtardıqda 15 dəqiqəlik fasilə verilir.

   **Essenin yazılması üçün isə 1 saat 30 dəqiqə** vaxt ayrılır. Hər iki hissədə imtahanın başlanma vaxtı zal nəzarətçisinin "İmtahan başlandı" elan etdiyi vaxtdan hesablanır.
5. **İmtahanın birinci hissəsində** sizə qanunvericilik və ümumi sahəvi bilikləri yoxlayan 70 tapşırıq (63 qapalı tipli və 7 açıq tipli), ümumi dünyagörüşü səviyyəsini yoxlayan 10 tapşırıq (9 qapalı tipli və 1 açıq tipli) və verbal, rəqəmsal məlumatlarla işləmə və mücərrəd düşünmə bacarığını yoxlayan 20 tapşırıq olmaqla (18 qapalı tipli və 2 açıq tipli) ümumilikdə 100 tapşırıq təqdim olunur.
6. Verbal məlumatlarla işləmə bacarığı üzrə qapalı tipli tapşırıqlarda 3 cavab variantından (A, B, C), digər qapalı tipli tapşırıqlarda isə 4 cavab variantından (A, B, C, D) istifadə olunur.
7. **Qapalı tipli test tapşırıqlarında** sual kitabçasında hər sual üçün verilmiş cavab variantlarını diqqətlə oxuyun. Bu cavablardan yalnız biri düzgündür. Düzgün hesab etdiyiniz cavabı seçin və cavab kartında ona uyğun sıradakı dairəni qaralayın. Bir suala aid olan iki və ya daha çox dairə qaralanarsa, həmin cavab səhv hesab edilir.

   **Açıq tipli test tapşırıqlarının isə** hər birinin cavabını bu cavab üçün nəzərdə tutulmuş damalara sol xanadan başlayaraq yazın. Sonra hər damanın altındakı sütunda uyğun rəqəmi tapıb onun yerləşdiyi dairəni tam qaralayın. Əgər eyni bir sütunda birdən çox dairə qaralanarsa, onda cavab səhv hesab edilir.

8. Hər bir sualın düzgün cavabı 1 (bir) balla qiymətləndirilir (cəmi 100 mümkün bal) və nəticələr hesablandıqda səhv cavablar düz cavabların nəticəsinə təsir göstərmir. Suala düzgün olmayan cavab və ya sualın cavabsız saxlanması sıfır balla qiymətləndirilir. **Ballar hesablanarkən yalnız cavab kartında qaralanan cavablar nəzərə alınır.**
9. **İmtahanın ikinci hissəsində** sizə üzərində soyadınız, adınız və ata adınız yazılmış esse vərəqi təqdim olunur. Esse vərəqi 4 səhifədən (hər dil üçün 2 səhifə) ibarətdir. Siz esse vərəqində təqdim olunan 3 mövzudan birini seçərək həm Azərbaycan dilində, həm də qeydiyyat zamanı seçdiyiniz xarici dildə olmaqla 2 esse yazmalısınız. Yazılan hər bir esse 200-250 sözdən ibarət olmalıdır. Esse tapşırığı tünd qara rəngli diyircəkli qələmlə yerinə yetirilməlidir.
10. **İmtahanın hər iki hissəsində** imtahanın başlandığı elan olunan andan etibarən **1 saat müddətində və imtahanın son 15 dəqiqəsi ərzində** imtahan zalından çıxmaq qadağandır. Qalan vaxt ərzində imtahandan çıxan iştirakçılar cavab kartını, sual kitabçasını və esse vərəqini nəzarətçiyə təhvil verir və imtahan binasını tərk edir. İmtahanın ikinci hissəsində iştirak edəcək imtahan iştirakçılarına imtahanın birinci hissəsində zaldan çıxmağa icazə verilmir.
11. İmtahanın ikinci hissəsində iştirak edəcək imtahan iştirakçılarına **15 dəqiqəlik fasilə zamanı imtahan binasını tərk etmək qadağandır.**

**DİQQƏT!** Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, həm köçürənin, həm də köçürməyə şərait yaradanın imtahan nəticələri ləğv olunacaqdır.
**DİQQƏT!** Cavab kartının, esse vərəqinin və sual kitabçasının qorunmasına və korlanmamasına siz şəxsən məsuliyyət daşıyırsınız.

12. İmtahanın qurtardığı elan olunduqda nəzarətçi cavab kartınızı, sual kitabçanızı və esse vərəqinizi sizdən təhvil alır. Cavab kartınızı, sual kitabçanızı və esse vərəqinizi nəzarətçiyə təhvil verməsəniz, imtahan nəticələriniz ləğv olunacaqdır.

## İŞTİRAKÇIYA QADAĞANDIR:

- saxta sənəd təqdim etmək;
- imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına, zalına mobil telefon və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası, çanta, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

  **DİQQƏT!** İştirakçının imtahan binasına, zalına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə, bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.
- yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız içməli su istisna olmaqla), siqaret gətirmək;
- sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- tibbi maskanı çıxartmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq, danışmaq, kiməsə kömək etmək və ya kiminsə köməyindən istifadə etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının cavab kartına, sual kitabçasına, esse vərəqinə baxmaq və ya öz cavab kartına, sual kitabçasına, esse vərəqinə başqasının baxmasına şərait yaratmaq;
- **imtahanın hər iki hissəsində** imtahanın başlanma vaxtından **1 saat müddət keçənədək və imtahanın qurtarmasına qalmış son 15 dəqiqə ərzində** imtahandan çıxmaq.

Belə hallar aşkar edilərsə, iştirakçı imtahandan kənarlaşdırılacaq və onun imtahan nəticələri ləğv olunacaq. Siz cavab kartının 1-ci bəndində belə hallara yol verməyəcəyiniz barədə öz üzərinizə öhdəlik götürərək Bəyannamə imzalayırsınız.

Əgər siz imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin. Nəzarətçi lazımi ölçü götürməsə, imtahan rəhbərinin və ya DİM-in nümayəndəsinin zala gəlməsini tələb edin.

**Sizə müvəffəqiyyətlər arzulayırıq!**